# Spirtli içkilərin ticarəti - 21 /Jun/ 2025

**Sual: Mən böyük bir market işlədirəm. Şərabın haram olduğunu bilirəm və şərab satan firmalarla əməkdaşlıq etmirəm. Amma əməkdaşlıq etdiyim bəzi ərzaq firmaları vardır ki, əgər onlardan şərab almasam, başqa məhsulları satmırlar. Məcburiyyətdən onlardan şərab alıb satıram və bacardığım qədər onlardan az şərab götürürəm. Mən şərabın qazancını götürmək istəmirəm. Bu pulu hara və nəyə sərf edə bilərəm?**

**Cavab: Spirtli içkilərin satışında hər növ həmkarlıq, hətta sualda qeyd edilən hal belə, haramdır.**

**Sual: Bizdən xidmət almaq istəyən şirkət qida və qeyri-qida məhsullarının alışı-satışı ilə məşğuldur və yüzlərlə qida məhsulları arasında spirtli içki ticarəti də edir. Həmin şirkətə idarəetmə ilə bağlı məsləhət xidmətləri vermək olarmı?**

**Cavab: Haram işlər, o cümlədən spirtli içkilərin və donuz ətinin ticarəti barəsində məsləhət vermək və buradan gəlir əldə etmək icazəli deyildir.**

**Sual: Bir şəxs hədiyyəlik qutular düzəldib satır və bir müştəri də bu qutuları alıb içərisinə halal mallarla yanaşı, haram olan (məsələn, şərab kimi) şeylər də qoyub satır. Bu qutuları satanın vəzifəsi nədir? Onun işi haramın satışına vasitəçilik sayılırmı, yoxsa yox? Belə olan halda bu şəxs həmin müştəriyə düzəltdiyi qutuları sata bilərmi?**

**Cavab: Əgər qutunu satan şəxs alıcının bu qutulara şərab qoyub satması məqsədilə onu satmırsa, həmçinin onun bu işi günaha yardım etmək hesab olunmursa, bunun maneəsi yoxdur.**

**Sual: Hava limanında işləyirəm. Vəzifəm sərnişinləri və onların yüklərini qeydiyyata almaqdır. Sərnişinlərin müxtəlif yükləri (bəzən dinimizdə icazəli olmayan içki və buna bənzər şeylər) olur. Belə olan hallarda vəzifəm nədir?**

**Cavab: Burada sizin yeganə vəzifəniz "yaxşı işlərə dəvət etmək" və "pis işlərdən çəkindirmək"dir, əlbəttə ki, "yaxşı işlərə dəvət etmək" və "pis işlərdən çəkindirmək" üçün şəriətdə açıqlanan şərait və şərtlər mövcud olmalıdır.**

**Tütün məhsullarının və narkotik maddələrin satışı**

**Sual: Mənə tütün şirkətində iş təklif olunub, lakin bu iş birbaşa siqaretlərin satışı şöbəsində deyildir. Həmin işdə işləmək və maaş almaq halaldır?**

**Cavab: Bunun öz-özlüyündə maneəsi yoxdur.**

**Sual: Mənim bir tanışım marixuana satır. Bu yolla qazanılan pul haramdırmı?**

**Cavab: Narkotik maddələrdən istifadənin fəsadlarını, o cümlədən ciddi fərdi və ictimai ziyanlarını nəzərə alaraq, onlardan istifadə etmək haramdır. Buna görə də narkotik maddələrin daşınması, saxlanılması, satışı və s. yollarla əldə edilən gəlir də haramdır.**

**Sual: Əgər narkotik maddə satıcısı olmayan, sadəcə çatdırılma edən şəxsə oradan pul qalarsa, o pul haramdır?**

**Cavab: Narkotikanın çox ciddi fərdi və ictimai ziyanlarını nəzərə alaraq, ondan istifadə etmək haramdır. Bu səbəbdən də onun daşınması, saxlanması, satışı və s. bu kimi işlərdən əldə edilən gəlir də haramdır. Şəxs bu gəlirin sahibi olmur.**

**Əczaxana və dərman satışı**

**Sual: Mənə bir iş təklif edilib. Mən anbarda apteklərin sifarişlərini siyahıya uyğun yığıb təhvil verməliyəm. Amma bəzi dərmanların tərkibində spirt və qeyri-müsəlman ölkələrində hazırlanmış donuzdan alınması ehtimal edilən jelatin vardır. Belə olan halda həmin anbarda işləmək icazəlidirmi?**

**Cavab: Əgər spirtin və ya jelatinin halal, yoxsa haram qismindən olduğunu bilməsəniz, bu işin iradı yoxdur.**

**Sual: Bir nəfər tərkibində şəri kəsim olmayan heyvanın ödü olan dərmanı müsəlman şəxsə satıb. Bu alğı-satqının hökmü nədir? Alğı-satqı düzgün deyilsə, satan şəxsin vəzifəsi nədir?**

**Cavab: Sualda qeyd olunan məsələ alğı-satqının düzgünlüyünə xələl gətirmir.**

**Baykot olunan məhsullar**

**Sual: İsrail istehsalı olan malları almaq olmaz? Zülmə səbəb olan başqa-başqa ölkələrin istehsal etdiyi malları da almamalıyıq?**

**Cavab: Əgər bu məhsulların alğı-satqısı qəsbkar İsrail dövlətinin güclənməsinə səbəb olacaqsa və ya İslam və müsəlmanlarla düşmənçilik yolunda sərf ediləcəksə, bu məhsulların alğı-satqısına icazə verilmir. Amma əgər bu məhsulların mənfəətinin sionistlərə çatdığını və ya İslam dininə və müsəlmanlara qarşı düşmənçilik yolunda sərf edilib-edilmədiyini bilməsəniz, onların alğı-satqısının maneəsi yoxdur.**

**Sual: 1) Müəyyən bir Amerika şirkəti Amerika hökumətinə vergi verir və Amerika hökuməti də bu vergidən sionist rejimə yardım edir. Bu halda həmin şirkətin məhsullarını almağın hökmü nədir?**
**2) Əgər hansısa bir şirkətin sionist rejimə kömək edib-etmədiyini bilmiriksə, bu halda hökm nədir?**

**Cavab: 1 və 2) Ümumiyyətlə, sionistlərin şirkətlərinin, həmçinin gəlirləri ilə qəsbkar və uşaq qatili olan sionist rejiminə kömək edən şirkətlərin məhsullarının alğı-satqısı haramdır. Amma əgər bu məhsulların gəlirinin sionistlərə aid olub-olmadığı və ya İslam və müsəlmanlarla düşmənçilik yolunda istifadə olunub-olunmadığı dəqiq bilinməzsə, onların alğı-satqısının və istifadəsinin maneəsi yoxdur. Bunu isə insanın özü müəyyən etməlidir.**

**Sual: Coca-Cola şirkətinin Bakı ofisində iş təklifi almışam. Orada işləmək icazəlidirmi? Mənim işim Coca-Cola məhsullarının satışı ilə bağlı olmayacaq.**

**Cavab: Əgər bu məhsulların gəlirinin sionistlərə aid olduğu və ya İslam və müsəlmanlarla düşmənçilik yolunda istifadə olunduğu dəqiqləşməzsə, orada işləməyin maneəsi yoxdur.**

**Sual: Bildiyiniz kimi, Coca-Cola şirkəti rəsmi açıqlamasında İsrail ordusuna yardım etdiyini vurğulamışdır. Bu şirkətin məhsullarını almaq müsəlmanlara icazəlidirmi?**

**Cavab: Ümumiyyətlə, sionist şirkətlərinin və ya öz gəlirləri ilə qəsbkar İsrail rejiminə kömək edən şirkətlərin məhsullarının alğı-satqısı haramdır. Amma əgər bu məhsulların gəlirinin sionistlərə aid olub-olmadığını və ya İslam və müsəlmanlarla düşmənçilik yolunda istifadə olunub-olunmadığını bilməsəniz, onların alğı-satqısının maneəsi yoxdur.**

**Sual: İsrail şirkəti ilə müqavilə əsasında işləmək icazəlidirmi? Belə ki, həmin şirkət vasitəsilə müştəri tapıb bəzi onlayn işlər görülür və əldə edilən gəlirin bir hissəsi (məsələn, 20%-i) şirkətin hesabına köçür. Yəni şirkətin saytı var, burada müştəri tapıb onunla iş gördüyümüz üçün şirkətə ödəniş edirik və hər işə görə müəyyən faiz ödəyirik. Şirkət İsrail şirkətidir.**

**Cavab: Sionistlərə aid şirkətlər və ya gəlirləri ilə qəsbkar İsrail rejiminə kömək edən şirkətlər ilə həmkarlıq edib gəlir əldə etmək haramdır.**

**Sual: 1) İsrailə iş ilə əlaqədar gedib, orada hərbi sahəyə aid olmayan işləri görmək olarmı? Məsələn, mən qaynaqçıyam. Orada peşəm üzrə işləyə bilərəmmi?**
**2) Öz ölkəmizdə İsrail şirkətlərinin məhsullarını almaq və istifadə etmək olarmı?**

**Cavab: Ümumiyyətlə, sionist şirkətlərinə və ya öz gəlirləri ilə qəsbkar İsrail rejiminə kömək edən şirkətlərə mənfəət verən hər hansı bir işi görmək haramdır. Amma əgər bu məhsulların gəlirinin sionistlərə aid olub-olmadığını və ya İslam və müsəlmanlarla düşmənçilik yolunda istifadə olunub-olunmadığını bilməsəniz, onların alğı-satqısının maneəsi yoxdur.**

**Sual: İşlədiyim şirkətin bir bölməsi var, onlar təhsil üçün İsraildən proqram alırlar. Ancaq ümumi olaraq şirkətin İsraillə alış-verişi yoxdur. Belə olan halda mənim boynuma düşən vəzifə nədir? Burada qalıb işləyə bilərəmmi?**

**Cavab: Suala əsasən, orada işləməyin öz-özlüyündə maneəsi yoxdur.**